

Motsart. «DonJuan» operasından səhnə. Eldar Əliyev — Don Juan. Berlin, Staatsoper Unter den Linden, 2000

# UCALIQDA QALAN SƏS

*(Eldar Əliyevin işıqlı xatirəsinə ithaf)*

Yayın son ayının ilk həftəsində acı bir xəbər bizi sarsıtdı. Avqustun 4-də Milanda opera sənətinin görkəmli nümayəndəsi, həmyerlimiz Eldar Əliyev 49 yaşında dünyasını dəyişib. Bu hadisə Avropa opera aləmində güclü əks-səda doğurdu, bütün əsas opera saytlarında işıqlandırıldı, bir çox tanınmış musiqi xadimi sosial media səhifələrində azərbaycanlı bas E.Əliyevi dərin hüznlə andı. Bəlli oldu ki, vətəndə məhdud mütəxəssislər çevrəsini çıxmaq şərtilə Eldarı tanıyanların sayı o qədər də çox deyil. Halbuki Eldar XX əsrin sonu - XXI əsrin ilk illərində Avropanın bütün əsas opera meydançalarında parlaq nailiyyətlər qazanmış bir müğənni idi. La Scala, Teatro dell'Opera di Roma, Covent-Garden, Tearo Real de Madrid, Opèra National de Paris, habelə Venesiya, Florensiya, Bolonya, Genuya, Turin, Parma, Triest, Berlin, Münhen, Lozanna, Brüssel kimi şəhərlərin şöhrətli opera teatrlarının tamaşaçıları azərbaycanlı opera sənətçisini sevgi ilə alqışlamışlar. Eldarın tərəf-müqabilləri arasında Nikolay Gyaurov (Nicolai Ghiaurov), Leo Nuççi (Leo Nucci), Renato Bruzon (Renato Bruson), Çeçiliya Bartoli (Cecilia Bartoli), Xose Kura (José Cura), Xuan Dieqo Flores (Juan Diego Flórez), Debora Voyt (Deborah Voigt) kimi opera ulduzları, iştirak etdiyi tamaşaların və konsertlərin dirijorları sırasında Rikkardo Muti (Riccardo Muti), Daniel Barenboym (Daniel Barenboim), Rikkardo Şayi (Riccardo Chailly), Daniel Oren, Valeri Gergiyev, Vladimir Yurovski, Ceyms Konlon (James Conlon) kimi məşhurlar var. Onun repertuarı isə həqiqətən zəngin, al-əlvan bir palitra təqdim edir: burada Motsart, Rossini, Donisetti, Bellini, Verdi, Puççini, Berlioz, Debüssi, Rimski-Korsakov, Çaykovski, Prokofyev və neçə-neçə başqa bəstəkarın operalarının, habelə iri vokal-simfonik əsərlərin, məsələn, iki – Motsartın və Verdinin - Requiem'i, Bethovenin IX, Şostakoviçin XIII simfoniyalarının adlarını görürük. Vokalçının dəvətli olduğu miqyaslı musiqi layihələri tanınmış səsyazma şirkətləri, o cümlədən Decca Records tərəfindən nəşr edilmişdir.

## Üzü zirvəyə...

Eldar Əliyevin həyat yolunun başlanğıcı haqqında məlumat qıtdır. 1971-ci ildə Bakıda anadan olub. Erkən yaşlarından pianoda ifa etməyi öyrənib, yeniyetmə ikən populyar musiqinin ulduzlarına bənzəmək istəyib, hətta estrada qruplarında müğənni kimi çıxış edib. Amma 1991-ci ildə konservatoriyaya daxil olduqdan sonra opera ilə görüşüb və onun qarşısında tamamilə yeni - əsrarəngiz və möhtəşəm bir dünya açılıb. Sonralar dəfələrlə qeyd edirdi ki, opera, müğənninin yaradıcılıq imkanlarını ifadə etmək üçün ən ali bir formadır. Operada oxumaq heç nə ilə müqayisə oluna bilməyəcək zövq bəxş edir. Və ən əsası - oxumaq prosesinin özüdür: alqışlar, şan-şöhrət – bütün bunlar o qədər də böyük önəm kəsb etmir.

1992-ci ildən təxminən 2005-ci ilə qədərki dövrü əhatə edən zaman kəsimi heyrətamiz hadisələrlə zəngindir – bir növ kreşşendo-

varı xətt üzrə yüksələn bir həyat tarixçəsini təqdim edir. Elə Bakı Musiqi Akademiyasının 2-ci kursunda Eldar, Rizvan Sədirxanovun təşəbbüsü ilə gerçəkləşdirilən seçim dinləyişlərini uğurla keçərək 4 nəfər istedadlı gənc vokalçı heyətində İtaliyaya yola düşür, burada Ozimo vokal akademiyasında (Academia D'Arte Lirica Osimo) təhsilini davam etdirir. Daha sonra bir pillə də fəth olunur: dünya şöhrətli La Scala opera teatrının bədii rəhbərliyinin seçimi nəticəsində Eldar ünlü sənətkar Karlo Berqontsinin (Carlo Bergonzi) məşğələlərinə ("Amici del Loggione del Teatro alla Scala" adlı bir qurum tərəfindən dəstəklənən kurslardır) qatılmaq imkanı əldə edir. Ən əsas hadisə də 1994-cü ilə təsadüf edir: həmin xoşbəxt ildə Trevizo şəhərində keçirilən Toti dal Monte adına Beynəlxalq müsabiqədə iştirak edib, Motsartın "Sehrli fleyta" operasında Zarastro partiyasının debütünü udur. Bəllidir ki, Motsart hər bir artist üçün bir növ sınaqdır, onun musiqisi lakmus kağızı kimi ifaçının nəyə qadir olduğunu apaydın üzə çıxarır. Digər tərəfdən,


Eldar Əliyev Bakıda təhsil aldığı illərdə tələbə dostları ilə

**OPERADA OXUMAQ HEÇ NƏ İLƏ MÜQAYİSƏ OLUNA BİLMƏYƏCƏK ZÖVQ BƏXŞ EDİR. VƏ ƏN ƏSASI - OXUMAQ PROSESİNİN ÖZÜDÜR: ALQIŞLAR, ŞAN-ŞÖHRƏT – BÜTÜN BUNLAR O QƏDƏR DƏ BÖYÜK ÖNƏM KƏSB ETMİR**

Motsartın son operasında Zarastro xüsusi bir obraz idi - xeyirxahlıq, dərrakə, harmoniyanı təcəssüm etdirirdi. Biz də bu gün həmin müdrik Zarastronun "In diesen heil'gen Hallen" ("Düşmənçilik və intiqam bizə yaddır") ariyasını Eldarın təfsirində dinləyərək - nə yaxşı ki, bu ifa virtual məkanda var - onun səsinin bəxş etdiyi rahatlıq, nur və ahəngdarlıq – ali mənəviyyat aləminə qərq oluruq.

Burada elə E.Əliyevin səs imkanlarına diqqət yetirmək istərdim. Nadir gözəlliyə malik bir səs idi. Yadımdadır ki, Bakıda onu dinləyən təcrübəli gürcü konsertmeysteri T.Eliava mənimlə söhbət əsnasında: "Unikal səsdir. Tam qətiyyətlə demək çətindir: bu, basdır və ya bariton?" – deyə bir qədər tərəddüdlə söyləmişdi. Yəqin Eldarın səsini geniş diapazona malik uca bas kimi müəyyənləşdirmək olar. Buna basso -cantante də deyirlər, tembr də baritonal çalarlara boyanıb, məxmərtək yumşaqdır. Eyni zamanda Eldar dərinlik, dolğunluq kimi keyfiyyətlərə malik basso -profundo partiyalarında da bəzən çıxış edirdi. Amma anlayırdı ki, gələcəkdə oxuduğu partiyaların sayını məhdudlaşdırmalıdır. Bu barədə 2000-ci ildə Leyla Məmmədova-Fərəcova ilə söhbətdə demişdi: qoy 3-4 il irəliyə hesablanan kontraktların şərtlərini yerinə yetirim, sonra isə reper-



tuarımı 5-6 partiya üzərində quracağam... Ehh... kim biləydi...

Bu günlər Eldarın səsini sanki kəşf edənlər onun məziyyətləri haqqında çox yazırlar. Başqa bir mütəxəssis - ukraynalı pedaqoq və vokalçı Yelena Starodubtseva Eldarın gözəl və duyğusal tembrini qeyd edib "qatı" aşağı registri olan bu səsin üst registrə ehmallıca yüksəlmək kimi keyfiyyətinə diqqət yetirir. Belə imkanlara malik çevik səs sahibi olan Eldar ənənəvi bas partiyaları ilə yanaşı, Don Juanı (bas-bariton) da oxuya bilirdi. Özü də necə! Məsələn, 2000-ci ildə Berlin Dövlət operasında (Staatsoper Berlin) tamaşaya qoyulan "Don Juan"da onun tərəf -müqabilləri sırasında məşhur Rene Pape (Leporello) və Çeçiliya Bartolinin (Donna Elvira) adlarını oxuyuruq. "Neues Deutschland" qəzetinin müxbiri quruluşu (rejissor Thomas Langhoffs), postmodernist məcrada hazırlanmış kostyumları tənqid etdikdən sonra tamaşanın itirilmiş imkanlarını - "gecəni görkəmli hadisə səviyyəsinə qaldırmaq iqtidarında olan musiqi potensialını" vurğulayır. Tənqidçinin fikrincə, artistlər nəinki səhnələşdirmənin bütün vakuumunu dəf etmək üçün var qüvvə ilə çalışır, habelə böyük vokal ustalığı sərgiləyirlər. Sonra da Rene Pape (Leporello), Doroteya Röşman (Dorothea Röschmann;Tserlina) ilə yanaşı, Eldar Əliyevin "eleqant" ifası qeyd olunur.

Hər bir tamaşada rejissorun konsepsiyası ilə rabitədə E.Əliyev həm də maraqlı obraz ortalığa qoyurdu. Həmin rejissorlar sırasında isə Henninq Brokhauz (Henning Brockhaus), Pyer Luici Pitsi (Pier Luigi Pizzi), Qrem Vik (Graham Vick), Stefan Braunşveyq (Stéphane Braunschweig) kimi işarəvi adlar var. Hətta əsas rolda çıxış etməyəndə belə Eldar öz personajını yaddaqalan və cazibədar etməyi bacarırdı. Yenə də şahidlik edən sənədə - bu dəfə Lozannanın "Le Temps" qəzetinin rəyinə (21 mart, 2000) üz tutaq. Vokalçılara dair bəzi iradlarını bildirən tənqidçi "Riqoletto" operasında Eldarın canlandırdığı Sparafuçile obrazına diqqət yetirərək "Azərbaycan mənşəli basın qatil-monstra insani cizgilər aşıladığını" vurğulayır. Özü də Sparafuçile məşhur Braunşveyqin təfsirində operada riyakarlıqdan uzaq yeganə personajdır. E.Əliyev "Şərqi" jurnalının redaktoru Leyla




Eldar Əliyev Ozimo Vokal Akademiyasında məşhur musiqişünas, pedaqoq, opera xadimi Sercio Seqalininin (1944-2018) dərsində

**ELDAR ƏLİYEVİN SƏSİ NADİR GÖZƏLLİYƏ MALİK İDİ. MÜTƏXƏSSİSLƏR ONUN SƏSİNİN BAS VƏ YA BARİTON OLMASINI QƏTİYYƏTLƏ SÖYLƏMƏKDƏ ÇƏTİNLİK ÇƏKİRDİLƏR. ÇOXLARI ONUN SƏSİNİ GENİŞ DİAPAZONA MALİK UCA BAS SAYIRDILAR**

Abdullayeva ilə söhbətdə bu obraza bəzi koloritli bakılı "personajlara" xas rənglər qatdığını da söyləmişdi.

Ümumiyyətlə, Eldarın repertuarı çox zəngindir: on il ərzində onlarla müxtəlif üslublu bəstəkarların opera və iri həcmli vokal əsərlərini – Motsartdan Prokofyevə qədər - ehtiva edir. On il ərzində təxminən 40-a yaxın partiya! Yəni bir başqasının bəlkə də bütün həyatı boyu reallaşdıra bilməyəcəyi qədər... Amma o, öncə Verdinin operalarında yaratdığı dramatik xarakterləri ilə fərqlənirdi. Opera sənətinin korifeyi Cuzeppe Verdini çox sevirdi və hətta 2001-ci ildə - o zaman Verdinin vəfatından 100 il ötürdü - L.Abdullayevaya müsahibəsində demişdi ki, "görəsən, Verdi olmasaydı, biz baslar, nə ifa edərdik". Verdi operaları sırasında isə "Attila" (Attila), "Makbet" (Banko), "Taleyin gücü" (Markiz Kalatrava), "Riqoletto" (Sparafuçile), "Don Karlos" (Böyük inkvizitor, kral II Filipp)... var. Məsələn, Verdinin vətənində Verdi musiqisinin R.Muti kimi sərrafı Eldarı "Taleyin gücü" operasında Markiz Kalatrava partiyasına dəvət etmişdi. Təkcə bu fakt çox şey deyir. Neçə il öncə azərbaycanlı vokalçını La Scala səhnəsində görmüş maestro, K.Berqontsiyə üz tutaraq: "Bu gəncə inanırsan?" - deyə sual edibmiş. Müdrik K.Berqontsi isə bir an belə düşünmədən: "Bəli, özümə inanan kimi...", - deyibmiş.

Mütəxəssislərin rəyincə, E.Əliyevin əsas nailiyyətlərindən biri, Rossininin "Musa və Firon" operasında yaratdığı Firon obrazıdır. 1997-ci ildə Rossini festivalında sərgilənmiş, CD şəklində işıq üzü görmüş bu opera ( dirijor Yurovski, rejissor Vik) böyük bir sənət hadisəsi kimi dəyərləndirilib. Burada Eldarın səsinin qeyri-adi çevikliyi, mütəhərrikliyi – qısa desək, virtuozluğu heyran edir: tərəf-müqabilləri ilə rahatca ünsiyyət yaratmaq, onları "dinləmək" bacarığı isə ansambl səhnələrinin nadir bədii kamilliyinin təminatçısıdır. Bəli, Eldar üçün heç bir texniki manea, heç bir əngəl yox idi. O, opera səhnəsində hökmranlıq edirdi. Bakıda vokal sənətinin metri Nodar Andquladzenin dedikləri də sanki qulağımda sırğa kimi qalmışdı: "Materialın öhdəsindən Eldar kimi asanlıqla, olduqca təbii tərzdə gələn vokalçı çoxdan rastıma çıxmayıb. İstedadı çoxşaxəli, çoxvariantlıdır. Hiss olunur ki, səhnə Eldar üçün doğma bir evdir. Burada daha da şövqlə oxuyur".

## *Qızıl ürəkli sehrbaz*

Eldarın vəfatından sonra dərc olunan bir sıra yazılarda, internet məkanında yer alan rəylərdə qəribə bir ümumilik var. Onu eşidənlərin hamısı ifasını, səsinin ecazını xatirəsində yaşadır. Hətta Eldarı Trevizoda Zarastro obrazında - ilk böyük sənət işidir – görüb xatırlayanlar da var. N.Andquladze demişkən, "səs, günəş işığının belə nüfuz edə bilmədiyi dərinliyə varır". Məsələn, belə bir yazı diqqətimi cəlb etdi: "Yeganə dəfə onun canlı ifasını eşidib, ***bütün qəlbi ilə mənimlə ünsiyyətə girmək iqtidarını*** (kursiv mənimdir – Z.D.) ***hiss etdim***".

E.Əliyevi 2000-ci ildə Bakıda vokalçıların Bülbül adına II beynəlxalq müsabiqəsində dinləyən və səsinin maqnetizmini duyan xoşbəxtlər sırasında mən də var idim.

Bakıya çox sanballı sənət nailiyyətləri ilə gəlmişdi. Yuxarıda sadalanan bütün adlı-sanlı simaların əksəriyyəti ilə də ən şöhrətli səhnələrdə çıxış etmişdi. Trevizodakı yarışmadan sonra, 1998-ci ildə Hans Gabor Belvedere müsabiqəsinə də qatılaraq, laureat (III mükafat) adını qazanmışdı. Yeri gəlmişkən, müsabiqə şəraiti – orkestrsiz, dirijor və tərəf-müqabilsiz çıxışların da ürəyincə olmadığını – "enerji mübadiləsi yoxdur" - söyləyirdi. Eldar o zaman böyük sənətkarlara xas təvazökarlıqla ifalarını tam bəyənməmiş, hətta şəkk-şübhəsiz layiq olduğu Qran-pri mükafatının da 1-ci yer sahibi - rusiyalı metso-sopranoya verilməsinin daha ədalətli qərar olduğunu demişdir. Təəssüflə qeyd edim ki, bəzi dayaz adamlar indi Eldarın həmin sözlərinə dayaqlanaraq, əsassız ehtimallar irəli sürürlər.

Amma bir cəhət də var ki, müsabiqədə biz cəmi üç tur, yəni qısa vaxt kəsimində Eldarı ən müxtəlif partiya-rollarda görüb-eşitdik və onun sənətkar diapazonunu layiqincə dəyərləndirmək imkanı əldə etdik. O, Filippi də ("Don Karlos"), Attilanı da, Don Juanı da, Qocanı da ("Aleko") inandırıcı təqdim etdi: hər çıxış sanki "bir aktyorun teatrı" idi – hər dəfə fərqli, hər dəfə gözlənilməz... Digər tərəfdən, biz onun kamera musiqisi təfsirləri ilə də tanış ola bildik. Nə deyək, bəzən müqtədir opera müğənniləri romans ifa etməkdə çətinlik çəkir, vokal miniatürləri az qala opera ariyası kimi təqdim edir, izafi emosionallığa, dramatizasiyaya yol verirlər. Yadımdadır, Borodinin «Для берегов Отчизны дальной» elegiyasını Eldar böyük hüzn aşılanmış Puşkin mətninin incə nüanslarına vararaq nəcib təmkinlə təfsir edib, böyük emosional qüvvəyə malik, haradasa hətta faciəvi bir obraz ərsəyə gətirdi. Asəf Zeynallının sadə, sadə olduğu qədər cazibədar, ürəyi saf duyğuları ilə ovunduran "Ölkəm" romansı isə qürbətdə yaşayan, parlaq Milanda doğma yurdun həsrətini çəkən Vətən övladının səmimi sevgi etirafı kimi səsləndi. Nəhayət, "Aman, ovçu" xalq mahnısının incə musiqi duyumlu, həssas konsertmeyster Tamilla Quliyeva ilə bahəm "oynaq" ifası ilə – burada improvizasiya məqamının müdaxiləsi xüsusi bir ovqat yaradırdı - Eldar auditoriyanı, ən əsası isə möhtəşəm İrina Arxipova başda olmaqla bütün münsiflər heyətinin üzvlərini fəth etdi. Zəhmli, amma ədalətli münsif-sədr İ.Arxipova Eldarın sərbəst davranışından, o cümlədən, geyim tərzindən (Eldar ənənəvi smokinqdən imtina etmişdi) hiddətlənsə də, sonucda onun nadir istedadını qiymətləndirməyə bilməzdi.

Həmin vaxt Eldarın ətrafında o qədər pərəstişkar var idi - valeh olmuş dinləyicilər, israrlı jurnalistlər... Eldar heç kimi incitmədi, narazı qoymadı, avtoqraf da verdi, sualları da cavablandırdı. Mən də onunla müsahibə barədə sövdələşmişdim – müsabiqə bitdikdən sonra ertəsi gün. Amma, əfsuslar olsun, baş tutmadı – Eldar nasaz idi, İtaliyaya qayıtmağa çalışırdı, çünki orada onu ciddi və miqyaslı iş gözləyirdi - kontrakt əsasında. O zaman mən də Eldarın gərgin durumunu anlayıb təkid etmədim: müsabiqə günlərinin musiqi təəssüratları yetərdi. Həm də o, ulduz idi. Ulduzları isə bir azca kənardan seyr etmək məsləhətlidir.

Bir müşahidəmlə də bölüşmək istərdim: Eldarı bəziləri təkəbbürlü insan kimi səciyyələndirirdi, çünki onun obrazı tam özgün idi, müəyyən edilmiş qaydalar çərçivəsinə sığmırdı. Amma ürəyi necə də təmiz və geniş idi! Aldığı pul mükafatını dost-tanışa payladı. Üstəlik vokal sənətinin incəliklərinə dair bildiklərini elə müsabiqə günlərində səxavətlə həmkarları ilə bölüşdü. Həmin müsabiqənin iştirakçısı olmuş Dövlət Nurgəldiyev (hazırda Hamburq operasının so-



Verdi. «Riqoletto». Eldar Əliyev (Sparafuçile) Antonio Salvadori (Riqoletto) ilə. Venesiya, Teatro La Fenice, 2001



Rossini. «Musa və Firon». Eldar Əliyev (Firon) Mikele Pertuzi (Musa) ilə. Rossini Opera Festivalı. Pezaro, 1997



Rossini. «Musa və Firon» operasından səhnə. Rossini Opera Festivalı, 1997

listidir) bu kədərli günlərdə öz azərbaycanlı həmkarını olduqca xoş sözlərlə anaraq, o zaman Bakıda Eldarın dəyərli məsləhətlərindən faydalandığını minnətdarlıqla vurğulayır.

Mən də Eldarı bir başqa cür gördüm: xeyirxah, saxtakarlıqdan uzaq, dürüst, alicənab və məğrur bir insan kimi. "Qobustan" jurnalı üçün yazdığım məqalədə Eldara xas bölümü belə sözlərlə bitirmişdim: "Bəlkə elə ona görə E.Əliyev Raxmaninovun "Aleko" operasından azad ruhlu Qocanın hekayətini belə dərin duyğu ilə ifa etdi. Doğrusu, Eldar tipli insanlar rastıma çoxdan çıxmayıb..."

## *Çılğın qəlbli döyüşçü*

Bu sözlər 2000-ci ilin payız günündə qələmə alınmışdı – sevinc və heyrətlə... O çağdan düz 20 il keçir və mən yenə də Eldar haqqında yazıram – kədərlə, ürək ağrısı ilə... Oxuyuram, dinləyirəm, təhlil edirəm, Eldarın dostlarını, həmkarlarını dindirirəm... Heç kəs onun həyat yolunun belə bir ssenari üzrə inkişaf edəcəyini ağlına belə gətirməzdi. Hamı bir ağızdan: "Mümkünsüzdür!" – deyir. "Helikon-Opera" Moskva Musiqi teatrının bədii rəhbəri Dmitri Bertmanla söhbət edirik: "Boy-buxunlu, yaraşıqlı, dəblə geyinən (əynindəki xardal (!) rəngli gödəkçə indi də yadımdadır), misilsiz istedada malik vokalçı, güclü və nəcib insan – heç cür inana bilmirəm", - deyə həyəcanlanaraq söyləyir. - Taleyə minnətdaram ki, bu fövqəladə istedadla 1998-ci ildə İrlandıyada Veksford festivalında görüşdüm".

Bəli, nəhəng istedadı ilə bütün opera aləmində səs salmış Eldar həyatının son 15 ilini tam sükut içində - Milanın küçələrində keçirdi. Onun həmin illərinin durumu haqqında çox yazılıb, veriliş də nümayiş etdirilib. Odur ki, ürəkləri ağrıdan həmin olaylara bir də dönməyi lazım bilmirəm, həm də ehtimallara söykənən qənaətləri də qeyri-etik sayıram. Amma açığını deyim ki, bəzi təfərrüatlar məni üzücü suallar qarşısında qoymuşdu. Mən axı Eldarı başqa - azad və qürurlu insan kimi yadda saxlamışdım. Düşünürdüm: bəlkə o zaman, qələbə məqamında məqaləmin qəhrəmanını ideallaşdırmışdım? Lakin onun qayğısını çəkən sadə italiyalılar - məskunlaşdığı Milanın Prekotto rayonunun sakinləri Eldarı ancaq işıqlı, xeyirxah, "qızıl qəlbli" və ən əsası, ləyaqətli bir adam kimi səciyyələndirirlər: "O, həyatı necə də sevirdi", - deyə Eldara dar macalda dəstək olan mərhəmətli insanlar yazır. Bu rəyi təmas qurduğum əcnəbi həmkarlar da təsdiqləyir. Onların hamısı "zamanının birinci bası" adına layiq olan artistin vəfatından çox böyük kədər hissi keçirdiklərini bildirirlər. La Scala teatrının solisti serbiyalı Mila Vilotiyeviç (Mila Vilotijevic) yazır: "Biz Eldarla neçə il öncə Florensiyada Motsartın Messasının (Grosso Messe in C-moll, K.427) CD üçün yazılışında tanış olduq. Bizi böyük dirijor Piter Maaq (Peter Maag) bir araya gətirmişdi. Eldar necə gözəl insan idi, necə incə qəlbə sahib idi, necə də lətif, saf bas səsi var idi! İnanıram, indi o, mələklərin əhatəsindədir".

R.Mutinin rəhbərlik etdiyi "Taleyin gücü" operasında Eldarın tərəf-müqabili olmuş Giacomo Prestia da tamaşa üzərində birgə yaradıcılıq işini məmnunluqla xatırlayıb qeyd edir: "O, əsl bas idi, böyük artist, yaxşı bir həmkar və gözəl bir insan. Onun vəfatı haqqında məlumatı ürək ağrısı ilə qarşıladım. Heç zaman təsəvvür edə bilməzdim ki, həyatında belə bir seçim etsin. Amma... amma onu son dərəcə ağıllı bir adam kimi tanıdığım üçün hesab edirəm ki, bu seçim düşünülmüş bir addım idi".



Əlbəttə, Eldar Əliyevin dramatik taleyi bir daha teatr aləminin qəddarlığı və biganəliyi mövzusunu gündəmə gətirdi. Məsələn, tanınmış ingilis musiqişünası və tənqidçisi, "Klassik musiqini kim öldürdü?" kitabının müəllifi Norman Lebrext (Norman Lebrecht) bu barədə çox kəskin yazır: "Bizi maraqlandıran budur ki, guya həssas və humanist olan opera dünyası görkəmli bir ifaçının unudulmasına yol verdi. Eldar Əliyevin başına nə gəlibsə, onun təkrarına bir də imkan verməmək olmaz. Gəlin, həmkarlarımıza bütün durumlarda qayğı göstərək".

Bəli, sənət yolunun zirvəsində E.Əliyev – operaya bütün qəlbinin hərarətini, bütün enerjisini sərf etmiş artist – çaşqınlıq və çoxsaylı suallar doğuran qəfil bir yol seçir. Daimi gərginlik, müqavilələr məngənəsində boğulan Eldar, şöhrət və alqışlardan sanki bezikərək, səssizliyə qərq olmaq qərarı verir. Bu, bəlkə də onun bir etirazı idi: opera artistinin amansız istismarı, sənətin kommersiyalaşması ilə o, ruhən azad bir insan, heç cür barışa bilmirdi. İtaliyalı bas Marko Vinko (Marco Vinco) E.Əliyevin həyatına kövrəkcəsinə nəzər salıb, şəxsən tanımadığı vokalçının səsyazılarına, o cümlədən, Verdinin Requiem'indən "Confutatis"ə qulaq asıb, öz fikirlərini belə qələmə alır: "Amma bütün olaylara rəğmən sən, Eldar, alnına od-alovla ara vermədən vuruşan böyük döyüşçünün adını yazdın... Sənin səsin, Eldar-döyüşçü, vuruşun sonunda diz çökmüş **qalibin səsidir** (vurğulama mənimdir – Z.D.). Gözlərini göyə dikib oxuyursan: "(latınca) oro supplex et acclinis, cor contritum quasi cinis" (acizanə, diz çökərək dua edirəm /Ürəyim külə dönüb/). Tanrı da "gera curam mei finis" ("Ölümümün qeydinə qal"), taleyimi dəyərləndir", - deyə sanki səsinə səs verir".

## *Epiloq*

Eldar Əliyev dövlətimizin dəstəyi ilə xaricdə təhsil almış onlarla istedadlı gənclərimizdən biri idi. Yaradıcılığını Avropa, İtaliya ilə bağladı, burada şöhrət də tapdı, faciə də yaşadı. Amma arzu etdiyi kimi vətənində dəfn olundu. Pandemiya şəraitində yaşanan çətinliklərə baxmayaraq, E.Əliyevin vəfatından sonra onun nəşinin vətənə gətirilərək torpağa tapşırılması Azərbaycan və İtaliya hökumətlərinin bahəm əməkdaşlığı nəticəsində mümkünləşdi. Bu addım Azərbaycan dövlətinin milli sənətə, onun ləyaqətli təmsilçilərinə verdiyi dəyəri və görkəmli soydaşımızın xatirəsinə göstərilən ehtiramı əyani sərgiləyir. Məsələnin müsbət həllində müxtəlif strukturlar, ilk növbədə Mədəniyyət Nazirliyinin rəhbərliyi var qüvvəsini əsirgəməmişdir. Həmin hadisə beynəlxalq musiqi ictimaiyyəti tərəfindən də məmnunluqla qarşılandı.

Hər bir məqamında Eldar vətəninə bağlı, son dərəcə minnətdar bir insan olaraq qalırdı. Bu barədə o, 2000-ci ildə müsabiqə günlərində verdiyi müxtəlif müsahibələrində də demişdi. Bakı ilə bağlı arzuları da var idi. Leyla Məmmədova-Fərəcova ilə səmimi və çox mənalı, hətta ibrətamiz söhbəti əsnasında ("Musiqi dünyası" jurnalı, 2001, № 1-2) vətəndə "Bohema" operasını tamaşaya qoymaq, ümumiyyətlə, Bakıya İtaliyadan mütəxəssislər gətirmək, gənclərə yardım məqsədilə ustad dərsləri vermək istədiyini söyləmişdi. Təəssüf, bu gözəl niyyətlər baş tutmadı.

Amma, düşünürəm, əsas arzusunu - taleyin amansızlığı və bütün dramatik dönüşlərinə rəğmən - Eldar reallaşdıra bildi. Opera sənətinin vətəni – İtaliyada, əfsanəvi La Scala'da misilsiz uğur qazanmış ilk azərbaycanlı oldu. Onun, azərbaycanlı müğənninin, dünya opera ifaçılığına bəxş etdiyi töhfələr danılmazdır. Azərbaycan musiqi mədəniyyətinin Şövkət Məmmədova, Bülbül, daha sonra Müslüm Maqomayev kimi sənətkarlarının XX əsrin müxtəlif zaman kəsimlərində açdığı çığıra (hər üçünün həyatında İtaliya böyük rol oynayıb) yüzilin sonunda qədəm basaraq, böyük istedadı, inadkar çalışqanlığı, operaya sonsuz sevgisi hesabına möhtəşəm ucalığı fəth edə bildi. Ramiz Rövşən demişkən, o ucalıqlar isə daim qalacaqdır, onlar yenilməzdir. Bu gün E.Əliyevdən estafeti alan azərbaycanlı müğənnilərin adlarını dünyanın müxtəlif teatrlarının afişalarında oxumaq olar. Qürurvericidir!

İndi başlıca məsələ E.Əliyevin irsini araşdırmaq, vokalçının müstəsna nailiyyətlərini opera ifaçılığı tarixində təsbit etməkdir. Müxtəlif opera teatrlarının arxivlərində qorunan sənədləri əldə etmək, bütün səs yazılarını aşkarlamaq, işlədiyi böyük sənətkarların xatirələri daxil olmaqla həyat yolunu işıqlandıran kitab hazırlamaq, sənədli film çəkib geniş auditoriyaya təqdim etmək gərəkdir. Onda biz böyük həmvətənimiz Eldar Əliyevin xatirəsi qarşısında öz borcumuzu yerinə yetirmiş, onun adını dünya opera tarixinə əbədi həkk etmiş olarıq. ❖

**Zümrüd Dadaşzadə**